Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Mart 2023

www.ereforms.gov.az
info@ereforms.gov.az

**Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır.**




COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək. Mən burada iki qlobal çağırışı bəyan edirəm. Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır.

**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2023-cü il 2 mart tarixində Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə olan çıxışı**

# MÜNDƏRİCAT

2023 İXRAC İCMALI mart


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

"Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)"a aid xidmət ixracı haqqında məlumat — səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat — səh. 21

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

## 2023-cü ilin yanvar-fevral ayları ərzində 4,5 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## 2023-cü ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə ixrac **651,4 milyon ABŞ dolları** təşkil etmişdir

2023-cü ilin yanvar-fevral aylarında Azərbaycanın ümumi ixracı **4,5 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac 651,4 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin iki ayı ilə müqayisədə **36,6% artıb**.

2023-cü ilin yanvar-fevral ayları ərzində spirtli və spirtsiz içkilərin ixracı 6,6 dəfə, şəkər ixracı 78,5%, çay ixracı isə 22,7% artmışdır.

Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 124,8 milyon ABŞ dolları təşkil etmişdir. 2023-cü ilin yanvar-fevral ayları ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 92,2%-ini təşkil etmişdir. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 90,8% artmışdır.

2023-cü ilin yanvar-fevral ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (227,2 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda ilkin formalı polipropilen (23,6 milyon ABŞ dolları) ikinci, meşə fındığı (23,3 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2023-ci ilin yanvar-fevral ayları ərzində Türkiyəyə 273,9 milyon ABŞ dolları, Rusiya Federasiyasına 137,7 milyon ABŞ dolları, Gürcüstana 64,7 milyon ABŞ dolları, Qazaxıstana 19,4 milyon ABŞ dolları və İsveçrə Konfederasiyasına isə 19 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2023-cü ilin fevral ayının qeyri-neft ixracı **366,9 milyon ABŞ dolları** təşkil edib. 2023-cü ilin fevral ayı ərzində yeyinti məhsulları üzrə ixrac 53,4 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 313,5 milyon ABŞ dollarına bərabər olub.

2023-cü ilin fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (167,2 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Rusiya Federasiyasına (69,6 milyon ABŞ dolları) ikinci və Gürcüstana (40,3 milyon ABŞ dolları) üçüncü olub.

2023-cü ilin fevral ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (154,8 milyon ABŞ dolları) birinci, ilkin formalı polipropilen (14 milyon ABŞ dolları) ikinci və meşə fındığı (11,5 milyon ABŞ dolları) üçüncü olub.



# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2023-CÜ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2023-CÜ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2023 İXRAC İCMALI mart



# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR SƏNAYE MƏHSULLARININ İXRACI

(2022-ci ilin müvafiq dövrü ilə müqayisə ilə, faizlə)



- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**124,8 mln $**

2022/2023
**+2,9%**



2022/2023
**-14,5%**

**86,6 mln $**

**38,2 mln $**

2022/2023
**+90,8%**

# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI mart



# 2023-CÜ İLİN FEVRAL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI mart



# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI mart

| | 2023 | 2022 |
|---|---|---|
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen (PE) | 14,7 | 13 |
| Xurma | 14,6 | 27,2 |
| İlkin formalı propilen sopolimerləri (PE) | 13,1 | 8,6 |
| Polimerləşmədə ilkin formalı maddələr | 12,4 | 4,6 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (PE) | 10,7 | 19,8 |
| Dozalara bölünmüş dərman formaları | 10,5 | 0 |
| Alma | 10,2 | 4,9 |
| Alüminiumdan məftil, tros və kabellər | 8,8 | 0 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz saxaroza | 7,4 | 4,1 |

# 2023-CÜ İLİN FEVRAL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI mart

| | 2023 | 2022 |
|---|---|---|
| Elektrik enerjisi | 154,8 | 16 |
| İlkin formalı polipropilen (PP) | 14 | 7,5 |
| Meşə fındığı | 11,5 | 12,7 |
| Qızıl | 9,3 | 13 |
| Karbamid | 8,8 | 14,7 |
| Alüminiumdan məftil, tros və kabellər | 8,8 | 0 |
| Tomat (pomidor) | 8,5 | 10,8 |
| İlkin formalı propilen sopolimerləri (PE) | 7,8 | 5,1 |
| Pambıq mahlıcı | 7,6 | 28,9 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2023-cü ilin yanvar-fevral ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "STP Global Cable" MMC, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, Şirinov Elvin Valeh oğlu, "Baku Steel Company" QSC, "Almeyvə" MMC, "Mors Trading" MMC. "Rose Servis" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "ASK Tütün" MMC, "Şəki Şərab" MMC, "Azəripək" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 3

# “AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS)”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin yanvar-fevral aylarında “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” 3,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2023-cü ilin yanvar-fevral aylarında “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” tərəfindən dünyanın **39 ölkəsinə 3,6 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)”-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 80 faizini təşkil edib. 2023-cü ilin fevral ayında isə “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” dünyanın 39 ölkəsinə **1,8 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2023-cü ilin yanvar-fevral ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 813,3 min ABŞ dolları ilə Birləşmiş Krallıq, 698,3 min ABŞ dolları ilə Lüksemburq, 534,1 min ABŞ dolları ilə Fransa, 294,8 min ABŞ dolları ilə BƏƏ və 169,4 min ABŞ dolları ilə Almaniya qərarlaşıb.

# 2023-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA "AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS)" 3,6 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2023 İXRAC İCMALI mart



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 813,3 min $ | Birləşmiş Krallıq |
| 698,3 min $ | Lüksemburq |
| 534,1 min $ | Fransa |
| 294,8 min $ | BƏƏ |
| 169,4 min $ | Almaniya |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT

## 2023-cü ilin yanvar-fevral aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **333,8 milyon manatlıq** əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2023-cü ilin yanvar-fevral aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **333,8 milyon manat**, yalnız fevral ayında isə **162,3 milyon manat** dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2023 İXRAC İCMALI mart

| | 2021* | 2022 | 2023 |
|---|---|---|---|
| Yanvar | 72,2 | 204,7 | 171,5 |
| Fevral | 112,2 | 186,5 | 162,3 |
| Mart | | | |
| Aprel | | | |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| **Cəmi** | **184,4 mln** | **391,2 mln** | **333,8 mln** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

# 6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin mart ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 17,5 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2023-cü ilin mart ayı ərzində **146 müraciət** daxil olub. Müvafiq dövr ərzində **276 ədəd sertifikat** (110 ədəd mənşə, 143 ədəd fitosanitar, 9 ədəd baytarlıq, 14 ədəd CİTES) təqdim edilib.

2023-cü ilin mart ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **17,5 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq ulyuku, kərə yağı, pendir, qənnadı məmulatları, limonad, manqo, portağal, nar, alma və qarışıq şirələr, çaxır, narşərab, dondurma, iribuynuzlu heyvanların dondurulmuş mədəsi, təmizlənmiş duzlanmış qoyun bağırsağı, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü və dondurulmuş əti, gips daşı, pəncərə, heyvanlar üçün dərman vasitələri, tibbi zəli, su nasosları və hissələri, polad boru, polad kvadrat pəstah, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, polad boru, pambıq mahlıcı, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, ABŞ, Avstraliya, Almaniya, Gürcüstan, Belarus, Moldova, Honq Konq, İsrail, Koreya, Macarıstan, Rusiya, Sinqapur, Qazaxıstan, Özbəkistan, Türkiyə, Tacikistan üstünlük təşkil etmişdir.



# 2023-CÜ İLİN MART AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI
(milyon ABŞ dolları ilə)



# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)

2023 İXRAC İCMALI mart

51,9% Fitosanitar sertifikatı

39,7% Mənşə sertifikatı

5,3% CİTES sertifikatı

3,4% Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat